# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Qasımov İxtiyar Qasım oğlu**

22 mart 1970-ci ildə Ağdam rayonunun Salahlı kəndində anadan olub. 1977-ci ildə kənd orta məktəbinə gedib və səkkizinci sinfədək burada təhsil alıb. 1985-ci ildə Bakıya gəlib və təhsilini kimya-biologiya təmayüllü liseydə davam etdirib. Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasının aqronomluq fakültəsinə daxil olub.

1992-ci ilin yanvarında tələbələr istehsalat təcrübəsinə buraxılanda hərbi komissarlığa ərizə verərək cəbhəyə gedib. Döyüşə kəşfiyyatçı kimi başlayıb. Seçdiyi düzgün plan nəticəsində Qazançı kəndində ermənilərin üç PDM-i, bir zirehli maşını və onlarla canlı qüvvəsi məhv edilib.

14 iyul 1992-ci ildə ermənilərin Canyataq kəndinə hücumu zamanı yaralanmış əsgərlərimizin düşmən əlinə keçməməsi üçün qabağa atılıb, düşmənlə üzbəüz dayanaraq, əks-hücumun qarşısını təkbaşına almağa müvəffəq olub. Yaralılar xilas edilib, özü isə qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Salahlı kənd qəbiristanlığında dəfn edilib.

Vaxtilə oxuduğu Salahlı kənd orta məktəbi onun adını daşıyır.



**Qasımov Muxtar Cahid oğlu**

10 yanvar 1958-ci ildə Beyləqan rayonunun Kəbirli kəndində anadan olub. 1963-cü ildə ailəsi ilə doğma ata-baba yurdu olan Ağdam şəhərinə qayıdıb. 1974-cü ildə 5 nömrəli orta məktəbdə təhsilini başa vurub. Ağdam Konserv Zavodunda əmək fəaliyyətinə başlayıb, sonra tikinti-quraşdırma idarəsində işləyib. 1975-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

1981-ci ildə ali məktəbi bitirdikdən sonra təyinatla Xankəndindəki Təcili Yardım Stansiyasına göndərilib. 1988-ci ildə erməni yaraqlılarının Azərbaycan torpaqlarına hücumu başlayanda iş yerini Ağdam Mərkəzi Xəstəxanasına dəyişib. Reanimasiya şöbəsində həkim, hərbi xəstəxanada baş ordinator vəzifələrində çalışıb. Xocalı faciəsindən sonra öz taleyini cəbhə ilə bağlayıb. 1992-ci ilin martında Ağdamda hərbi hospitalda işə başlayıb. İyun ayında Naxçıvanik, Aranzəmin, Pircamal və Ağbulaq kəndləri uğrunda gedən döyüşlərdə hərbi həkim kimi iştirak edib. 16 iyun 1992-ci ildə Naxçıvanik kəndində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına həlak olub.

Ailəli idi.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.



**Qədiməliyev Arif Maasif oğlu**

13 iyul 1975-ci ildə Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. 1992-ci ildə burada orta məktəbi bitirdikdən sonra bir müddət Nəvai adına sovxozda işləyib.

1993-cü ildə Milli Ordu sıralarına çağırılıb. Sumqayıtda və Qusarda hərbi təlim keçib.

1994-cü il yanvarın 18-də cəbhəyə göndərilib. Döyüşə kəşfiyyatçı kimi başlayıb. Xidmət etdiyi hərbi hissənin tərkibində Füzuli, Kəlbəcər, Murovdağ uğrunda gedən döyüşlərdə yaxından iştirak edib, həm kəşfiyyatçı, həm də nişançı-atıcı kimi komandirlərin hörmət və təşəkkürlərini qazanıb. Ağdərə, Tərtər bölgələrində aparılan əməliyyatlarda rəşadət nümunəsi göstərib.

1995-ci il 13-17 mart hadisələri zamanı dövlət çevrilişi cəhdinin qarşısının alınmasında, dövlətçiliyimizə qənim kəsilən qüvvələrin zərərsizləşdirilməsində iştirak edərək müstəqil Azərbaycan uğrunda öz canını qurban verib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Dağ Kəsəmən kəndində dəfn edilib. Ağstafa kəndində büstü qoyulub, adına mədəniyyət evi var.



**Mədətov Fariz Əlövsət oğlu**

18 aprel 1972-ci ildə Yevlax rayonunun Varvara kəndində anadan olub. 1979-1989-cu illərdə kənd orta məktəbində təhsil alıb. Orta məktəbi bitirdikdən sonra Mingəçevir şəhərində sürücülük peşəsinə yiyələnib. 1990-cı ildə hərbi xidmətə çağırılıb. 1992-ci ilin may ayında ordudan tərxis olunub. Elə həmin il torpaqlarımızı erməni işğalından azad etmək məqsədi ilə Milli Orduya səfərbər edilib. Xidmət etdiyi xüsusi təyinatlı hərbi hissənin tərkibində Qubadlı rayonunun Başarat kəndi uğrunda döyüşlərdə iştirak edib. Kəşfiyyatçı kimi ad çıxarıb. Füzuli rayonunun Yağləvənd, Tuğ, Horadiz kəndlərinin müdafiəsində iştirak edib. Bir müddətdən sonra onun xidmət etdiyi hərbi hissə Kəlbəcər, Goranboy ərazilərinə göndərilib. Bu döyüşlərdə də öz cəsarəti və qorxmazlığı ilə fərqlənib. 1994-cü ildə Tərtər rayonunun Tonaşen kəndi uğrunda gedən ağır döyüşdə yaralanıb. 1996-cı ildə ordudan tərxis olunaraq Yevlax Rayon Polis Şöbəsində əmək fəaliyyətinə başlayıb.

1998-ci ildə Polis Akademiyasına daxil olub, 2003-cü ildə təhsilini başa vurub.

Yevlax Rayon Polis Şöbəsində Post Patrul Xidmətinin taqım komandiri vəzifəsində işləyib. Hazırda burada polis şöbəsinin qeydiyyat və şəxsiyyət bölməsinin inspektoru vəzifəsində çalışır.

Evlidir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.



**Məmmədov Mövsüm Şahin oğlu**

1967-ci il iyunun 6-da Xocalı rayonunun Kosalar kəndində anadan olub. Orta təhsilini 1984-cü ildə doğma kəndində başa vurub. 1985-ci ildə ordu sıralarına çağırılıb. 1987-ci ildə ordudan tərxis olunaraq Vətənə dönüb. 1988-ci ildə Şuşa Elektrik Şəbəkəsi Birliyində əmək fəaliyyətinə başlayıb. 1990-cı ildə isə həyatını daxili işlər orqanlarına bağlayıb. O vaxtlar Azərbaycana qarşı ermənilərin torpaq iddiası, yaraqlıların arası kəsilməyən hücumları ölkədə sabitliyi pozmuşdu. Dağlıq Qarabağda və ətraf rayonlarda yerli polis işçilərinə böyük ehtiyac duyulurdu. O, Meşəli kəndində təşkil olunan polis dəstəsinin tərkibində 1992-93-cü illərdə erməni işğalçılarına qarşı aparılan hərbi əməliyyatlarda mərdliklə vuruşub və Xocalı soyqırımı zamanı dinc əhalinin xilas edilməsində böyük şücaət göstərib. 1994-cü ildə Şuşa Rayon Polis Şöbəsinin post-patrul xidməti bölüyünə komandir təyin edilib.

1998-ci ildə DİN-nin Polis Akademiyasını bitirib. İndi Şuşa Rayon Polis Şöbəsinin xidmət üzrə rəis müavini vəzifəsində çalışır. Polis polkovnik-leytenantıdır.

Ailəlidir. İki övladı var.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli 553 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.



**Məmmədov Sahil Ələmdar oğlu**

1964-cü il fevralın 25-də Qərbi Azərbaycanın Uluxanlı (Masis) rayonunun Yuxarı Necili (Nizami) kəndində anadan olub. 6 yaşında ikən əmisi ilə Bakı şəhərinə gəlib. 1981-ci ildə Bakıxanov qəsəbəsindəki 96 nömrəli orta məktəbi bitirib. 1982-ci ildə ordu sıralarına çağırılıb. 1983-cü ildə Moskva vilayətinin Krasnoqorsk şəhərində hərbi xidmətini başa vuraraq SSRİ DİN-in Sankt-Peterburq şəhərindəki Ali Siyasi Məktəbinə daxil olub. 1987-ci ildə təyinatla Ukrayna Respublikasının Çerniqov, sonra isə Kiyev şəhərinə göndərilib. Burada daxili qoşun hərbi birləşmələrinin tərkibində rota komandirinin siyasi işlər üzrə müavini vəzifəsində çalışmağa başlayıb. 1991-ci ilin oktyabrında Sovet Ordusundan tərxis olunub. 1992-ci il yanvarın 2-də Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlar İdarəsinin hərbi polis alayında rota komandirinin müavini kimi xidmətə başlayıb. Hərbi işdəki təcrübəsi nəzərə alınaraq Zəngilan rayonunun Qazançı, Ağkənd, Dərəli kəndlərinə zastava rəisi təyin edilib. Qazançı kəndinin müdafiəsi zamanı yanında partlamış mərmidən ağır yaralanıb. Bakıya mərkəzi xəstəxanaya göndərilib.

1994-cü ildən DİN-in pasport, Viza və Qeydiyyat İdarəsində baş inspektor vəzifəsində çalışır.

Ailəlidir. Bir övladı var.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.



**Məcidov Eldar Tofiq oğlu**

26 avqust 1965-ci ildə Bakı şəhərində anadan olub. 1982-ci ildə Yasamal rayonundakı 52 nömrəli orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Rəssamlar İttifaqının Bədii Fondunda işə düzəlib. 1983-cü ildə orduya çağırılıb. Hərbi xidmətini Almaniya Demokratik Respublikasında keçirib. 1985-ci ildə əsgəri xidmətini başa vuraraq, əvvəlki iş yerinə qayıdıb. 1989-cu ildə "Yaşıl teatr"a baş inzibatçı təyin edilib. Burada çalışarkən sənədlərini Azərbaycan Dövlət İncəsənət Universitetinə verib və mədəni-maarif fakültəsinə daxil olub.

Erməni işğalçıları torpaqlarımıza hücum edəndə könüllü cəbhəyə gedib. 20 mart 1992-ci ildə xidmət etdiyi hərbi hissədə PDM-ə komandir təyin edilib. Cəbhə bölgəsində düşmən hücumlarının qarşısının alınmasında, yaralıların və mülki əhalinin təhlükəsizliyinin təmin edilməsində müstəsna xidmətləri olub.

15 may 1992-ci ildə Şuşa rayonunun Zarıslı kəndində gedən döyüşlərdə ağır yaralanıb. Çoxlu qan itirdiyindən həyatını xilas etmək mümkün olmayıb.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 202 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.



**Məcidov Zakir Nüsrət oğlu**

26 iyun 1956-cı ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. 1963-cü ildə Bakıdakı 17 nömrəli orta məktəbə gedib. Təhsilini 70 nömrəli məktəbdə tamamlayıb. 1974-cü ildə Ryazan vilayətinin Sasovo şəhərində yerləşən Ali Hərbi Aviasiya Məktəbinə daxil olub. 1977-ci ildə həmin məktəbi bitirərək Yevlax aviadəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi əmək fəaliyyətinə başlayıb.

1980-ci ildə Zabrat aviadəstəsində AN-2 təyyarəsinin komandiri təyin edilib.

1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan hərbi hava hissəsində Mİ-24 vertolyotlarının birinə komandir təyin edilib. Həmin vertolyotla Ağdərənin Aterk kəndində ermənilərin yerləşdiyi qərargahı darmadağın edib. 1992-ci il avqustun 6-da yenidən düşmənin Kasapet yüksəkliyindəki üç mövqeyini susdurub. Dəfələrlə zərbələrə məruz qalan düşmən Mİ-24 vertolyotunu nəzarətdə saxlayır. Onlar tərəfindən atılan raketlərdən biri vertolyotu müvazinətdən çıxarır. Cəsur pilot qüvvəsini nə qədər toplasa da, vertolyot düşmən əlində olan əraziyə düşür, Zakir öz ekipajı ilə birlikdə qəhrəmancasına həlak olur.

Ailəli idi. Bir övladı var.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.



**Məhərrəmov Asif Yusif oğlu**

26 iyul 1952-ci ildə Ağdam şəhərində anadan olub. 1969-cu ildə şəhər 1 nömrəli orta məktəbini bitirib. Ağdam dəzgahqayırma zavodunda fəhlə kimi fəaliyyətə başlayıb.

Ermənilərin 1988-ci ildə başlayan təcavüzünə qarşı Ağdam rayonunun Abdal-Gülablı, Xıdırlı, Əmirallar, Sırxavənd, Bağbanlar, Əhmədavar kəndlərində dayaq dəstələri təşkil olunanda o da 1990-cı ildə Ağdam könüllü özünümüdafiə dəstəsini yaradıb və torpaqlarımızın qorunmasında yaxından iştirak edib.

1991-ci il dekabrın 31-də Xramort kəndinin azad edilməsində rəşadət göstərib.

1992-ci ilin martın 7-də hərbi minaaxtaranlar hissəsinin komandiri təyin edilib.

10 mart 1992-ci ildə məhz onun köməyi nəticəsində Aranzəmin, Pircamal, Dəhraz kəndləri düşməndən azad edilib. 1992-ci il martın 20-də öz dəstəsi ilə kömək məqsədi ilə Füzuli şəhərinə gedib və erməni quldurlarını böyük itkilərə məruz qoyub. 24 iyun 1992-ci ildə Naxçıvanik yolunda ağır yaralanıb. Bir müddət müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdıb. 1993-cü il fevralın 22-də Şelli uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü il oktyabrın 27-də səhhəti ağırlaşdığından hərbi hissəni təhvil verərək müalicəsini davam etdirmək məcburiyyətində qalıb. 1994-cü ildə bu məqsədlə Yaltaya gedən polkovnik-leytenant iyulun 1-də vəfat edib.

Ailəli idi. Bir qızı qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib. Bakı şəhərində adına küçə var.



**Məhərrəmov Səxavət Ələmdar oğlu**

5 dekabr 1973-cü ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Qaraçanta kəndində anadan olub. 1988-ci ildə daşnakların mənfur siyasəti nəticəsində öz el-obasından didərgin düşüb. Ailələri bir müddət Gürcüstanda yaşayıb, oradan Bakının Lökbatan qəsəbəsinə köçüb. Təmir-tikinti idarəsində əmək fəaliyyətinə başlayıb. Azərbaycanda milli azadlıq hərəkatının fəal iştirakçılarından olub.

1991-ci ilin noyabrında könüllü olaraq hərbi xidmətə gedib. Əvvəlcə daxili qoşunlarda, sonra isə təzəcə yaranan Milli orduda xidmət edib. Bir sıra hərbi əməliyyatlarda fəal iştirak edib, rəşadət nümunəsi göstərib.

27 iyun 1992-ci ildə Ağdərənin strateji əhəmiyyətli Möhrətağ kəndi uğrunda qızğın döyüşdə fərqlənib, düşmən mövqelərinə dağıdıcı zərbələr endirirdi. Ermənilər əllərindəki zirehli maşını da itirdikdən sonra kəndi tərk etməyə məcbur olurlar. Bölmə geri dönərkən kəndin yaxınlığındakı meşədə mühasirəyə düşür. Bu zaman düşmən gülləsinə tuş gəlir və qəhrəmanlıqla həlak olur.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Lökbatan qəsəbəsindəki 106 nömrəli tam orta məktəbə onun adı verilib.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*